İqtisadiyyat .- 2023.- 22 iyun.- 5 iyul.



## Qarabağın görkəmli simaları

# Yaqub Quliyev (1900-1942)

Sovet Ordusunun general-mayoru, İkinci Dünya müharibəsi iştirakçısı Yaqub Allahqulu oğlu Quliyev 1900-cü il yanvarın 25-də füsunkar Qarabağın Şuşa şəhərində dünyaya gəlib. Kiçik yaşlarında olarkən ailəsi ilə birlikdə Türkmənistana köçmüş və orada yaşamışlar.

1918-ci ildən Qırmızı Orduda könüllü xidmət etmiş, vətəndaş müharibəsinin və Türküstanda sovet hakimiyyətinin qurulmasının fəal iştirakçısı olmuşdur. 1918-ci ilin avqustundan 1920-ci ilin fevralına qədər Transxəzər cəbhəsinin bölmələrində Qırmızı Ordu əsgəri kimi xidmət etmişdir.

1920-ci ildə 1-ci Türküstan atıcı diviziyasının Əlahiddə Süvari Batalyonuna tağım komandiri təyin edilərək, qırmızı komandirliyə yüksəlmişdir.

1921-ci ildən 1932-ci ilə qədər basmaçılara qarşı mübarizədə iştirak etmiş, döyüş əməliyyatları zamanı göstərdiyi hərbi şücaətə görə Türkmənistan SSR Qırmızı Əmək Bayrağı ordeni və Türkmənistan SSR Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanları ilə təltif edilmişdir.



1933-cü ildə Y.Quliyev Frunze adına Hərbi Akademiyaya oxumağa göndərilmiş, 1936-cı ildə məzun olaraq kapitan rütbəsi və 1-ci dərəcəli diplomla təltif edilmiş, 1936-cı ildən 1940-cı ilə qədər 18-ci Türkmən Dağ Süvari Diviziyasında əvvəlcə əməliyyat şöbəsinin rəisi, sonra isə diviziyanın qərargah rəisi vəzifələrində xidmət etmişdir.

22 iyun 1941-ci ildə artıq polkovnik rütbəsində olan Y.Quliyev 21-ci dağ süvari diviziyasının komandiri vəzifəsinə təyin edilmişdir. Bir ay sonra diviziya artıq Fəal Ordunun tərkibində idi və 13-cü Ordunun tərkibində Mərkəzi Cəbhədə düşmənlə vuruşurdu.

Noyabrın 23-də Kurqan-Solyana uğrunda gedən döyüşlərdə vəziyyətin mürəkkəbliyini nəzərə alaraq, general-mayor şəxsən irəliləyən döyüşçülərlə birgə vuruşub və kəndin tutulmasına rəhbərlik edib. Bu döyüşlərdə18 top, 15 pulemyot məhv edilmiş, düşmənin 800-ə qədər əsgər və zabiti öldürülmüş, 250 əsir götürülmüşdür. Noyabrın 25-26-da diviziya düşmənin 50 tankdan ibarət tank qrupu və motoatıcı alayı ilə döyüşürdü. Döyüşlər zamanı Y.Quliyev almanların tank hücumlarının dəf edilməsinə rəhbərlik etmiş, almanları qərbə doğru 5 km geri çəkilməyə məcbur etmişdir. Bu zaman düşmənin 6 tankı və 250-yə qədər piyada döyüşçüsü məhv olmuşdur.

1942-ci ilin dekabr ayında 61-ci süvari diviziyasının ön döyüş xəttində qəhrəmanlıqla vuruşan general-mayor Y.Quliyev Stalinqrad ətrafında döyüşlərin birində ölümcül yaralanaraq vəfat etmişdir. General-mayor Y.Quliyevin cənazəsi təyyarə ilə Türkmənistanın Marı şəhərinə apararaq, mərkəzi şəhər parkının ərazisində, Murqab çayının sahilində dəfn edilmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 fevral 1943-cü il tarixli fərmanı ilə general-mayor Yaqub Quliyev ölümündən sonra Lenin ordeni ilə təltif edilmişdir.